*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 oktyabr 2018-ci il № 84 (2300) Qiymətı 25 qəpik


*Ön xətdən reportaj*

# “Vətən sevgisindən güc alırıq biz!”



Ön xətdə yerləşən "N" hərbi hissəsində Vətənin müdafiəsi uğrunda mübariz, əzmli, qorxmaz və ayıq-sayıq olan, düşmənin bir addımlığında xidmət edən əsgərlərimizin yanındayıq. İlk həmsöhbətim gizir Şəhriyar Əsgərovdur. "Vəzifələrin içərisində ən müqəddəsi Vətəni, torpağı qorumaqdır. Hərbi xidmətin insanın həyatında oynadığı rol çox böyükdür. Konstitusiyamızda da dövlətin mənafeyini qorumaq, nüfuzunun möhkəmlənməsinə xidmət etmək Azərbaycan vətəndaşlarının vəzifəsi kimi aydın göstərilib", - Şəhriyar deyir.

Vətən sevgisinin nədən qaynaqlandığını soruşuram.

- Kürdəmir rayonunda doğulub boya-başa çatsam da, həmişə Qarabağı, işğalda olan doğma yurdumuzu düşünmüşəm. Hərbi xidmətə marağım kiçik yaşlarımdan yaranıb. Atam daim bizə vətənpərvərlik duyğuları aşılayırdı. Qarabağdan, ermənilərin burada törətdikləri qırğınlardan söz açanda, hərbi mundir geyinib ordu sıralarına qatılmaq və əlimdə silah ana Vətənin keşiyində dayanmaq istəyirdim. Məhz həmin amal, həmin istək məni hərb həyatına bağladı.

**(Ardı 3-cü səhifədə)**

## “Azərbaycan ərazisinin bir hissəsinin işğal altında saxlanılması böyük ədalətsizlikdir”

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin insan hüquqları üzrə baş müvəkkili Şəref Malkoç bildirib.

Şəref Malkoç qeyd edib ki, ölkələrimiz arasında təkcə mənəvi bağlılıq yoxdur. Azərbaycan və Türkiyə bütün sahələrdə uğurla əməkdaşlıq edir. Dövlətlərimizin başçılarının siyasi iradələri ilə həyata keçirilən layihələrin və tədbirlərin nailiyyətləri göz qabağındadır. Bir neçə gün əvvəl açılışı olmuş STAR neft emalı zavodunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycanın və Türkiyənin birgə reallaşdırdığı nəhəng transmilli layihələr regionda və dünyada sabitliyə, inkişafa və əməkdaşlığa təkan verir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Şəref Malkoç vurğulayıb ki, Azərbaycanın ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal altında saxlanılması böyük ədalətsizlikdir. Beynəlxalq təşkilatlar mütləq buna ədalətli qiymət verməlidirlər. Bu, təkcə Azərbaycanın deyil, Türkiyənin də sağalmaz yarasıdır.

## “BMT dezinformasiya siyasətini qadağan edən qərarlar qəbul etməlidir”

Yanlış informasiya insanlara, təşkilatlara, bütövlükdə ölkələrə çox ciddi ziyan vura bilər. Biz xəbərləri mütləq analiz etməli, onların dəqiqliyini araşdırmalıyıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Ərəb Xəbər Agentlikləri Federasiyasının baş katibi Fərid Əyar jurnalistlərə müsahibəsində deyib.

Fərid Əyar bildirib ki, bəzi böyük dövlətlər kiçik dövlətlərə qarşı dezinformasiya siyasəti həyata keçirirlər və bunun da məqsədi əksər hallarda həmin dövlətlərdə qarışıqlıq salmaq olur. Dünya xalqları sülh şəraitində yaşamaq istəyir. Bu, mütləq nəzərə alınmalıdır. Ona görə də təhlükəli dezinformasiya meyillərindən yaxa qurtarmaq üçün dəqiq siyasət hazırlanmalıdır. BMT dezinformasiya siyasətini qadağan edən qərarlar qəbul etməli və bu qərarlara əməl olunmalıdır.

# Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib

*AZƏRTAC xəbər verir ki, Türkiyənin Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib. Səfir Erkan Özoral tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin yaranmasının 95-ci ildönümü münasibətilə xalqa müraciətini oxuyub.*




Müraciətdə Türkiyə xalqını Cümhuriyyət bayramı münasibətilə təbrik edən Prezident müstəqilliyin qazanılması yolunda qəhrəmanlıqlar göstərən hər bir türk övladının xatirəsinin ehtiramla anıldığını bildirir. Qeyd edilir ki, 2016-cı il 15 iyul dövlət çevrilişinə cəhd və terrorla mübarizə zamanı canlarından keçmiş bütün qəhrəman vətən övladlarının əziz xatirəsi hər zaman qəlblərdə yaşayacaq.

Türkiyə Prezidenti müraciətində güclü demokratiya və iqtisadiyyat yolunda atılan hər addımı ölkənin parlaq gələcəyi üçün yandırılan bir işıq kimi dəyərləndirdiyini bildirərək İstanbulda istifadəyə verilən yeni hava limanının da bu işıqlardan biri olduğunu vurğulayıb.

Türkiyənin hər bir uğurunun bölgədəki və dünyadakı bütün məzlumların ürəyindəki ümidləri canlandırdığını bildirən Prezident deyib: "Məhz bu səbəbdəndir ki, ölkəmizin iqtisadiyyatı dünyanın 17 ən böyük



iqtisadiyyatından biri olduğu halda, humanitar yardımlar məsələsində ilk sıradadır. Hər kəsin qapısını bağladığı qaçqınlara evini, ürəyini açan Türkiyə olmuşdur".

Müraciətinin sonunda Prezident 95 illiyinin qeyd edildiyi Türkiyə Cümhuriyyətinin əbədi yaşaması üçün bundan sonra da tam gücləri ilə çalışacaqlarını diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov rəsmi qəbulda çıxış edərək Türkiyə Respublikasının 95-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti və Hökuməti adından qardaş Türkiyə xalqını və dövlətini təbrik edib, Türkiyəyə davamlı sülh, firavanlıq, yeni nailiyyətlər və çiçəklənmə arzulayıb.

"Bu gün Türkiyə xalqı Cümhuriyyətin 95 illiyi ilə yanaşı, daha bir bayramı - tarixi İstanbul şəhərində yeni hava limanının açılışını qeyd edir. Bu, nəinki Türkiyədə, eləcə də dünyada həyata keçirilən nəhəng layihələrdən biridir. Bu mühüm hadisə münasibətilə də Türkiyə xalqını, Prezidentini təbrik edirik", - deyə Azərbaycanın Baş naziri vurğulayıb.

Baş nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə eyni köklərlə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Hazırda dünyada bir-birinə bu qədər yaxın olan ikinci bir nümunə göstərmək mümkün deyil. Bu mənada türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadələri münasibətlərimizin əsl mahiyyətini əks etdirir.

İftixarla qeyd etmək lazımdır ki, Qurtuluş savaşından sonra çox mürəkkəb və ziddiyyətli bir beynəlxalq vəziyyətdə Türkiyə Cümhuriyyətinin elan edilməsi XX əsrin ən mühüm hadisələrindən idi. Keçən dövr ərzində Türkiyə Cümhuriyyəti hərtərəfli inkişaf edərək çox böyük və şərəfli yüksəliş yolu keçmiş, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutmuşdur.

Azərbaycanın Baş naziri qeyd edib ki, dünyanın siyasi xəritəsində mühüm mövqeyə malik Türkiyə XXI əsrin əvvəllərindən regionda və dünyada əsas söz sahiblərindən birinə çevrilib. Təsadüfi deyil ki, Türkiyə "Böyük İyirmilik" ölkələri içərisində ən sürətlə inkişaf edən iqtisadiyyata malik ölkələrdən biridir.

Novruz Məmmədov deyib ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən Türkiyə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb.

"Ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzidir", - deyən Baş nazir bildirib ki, bu gün Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, humanitar, regional təhlükəsizlik, hərbi və digər sahələrdə əməkdaşlıq ən yüksək səviyyədədir.

Baş nazir Novruz Məmmədov qeyd edib ki, münasibətlərimizin möhkəmlənməsində dövlətlərimizin başçılarının şəxsi dostluq əlaqələrinin və qarşılıqlı səfərlərinin xüsusi əhəmiyyəti var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında yaranmış dostluq və qardaşlıq münasibətləri ikitərəfli əlaqələrimizin bütün sahələrdə daha da genişlənməsinə öz müstəsna töhfəsini verir. Təsadüfi deyil ki, hər iki ölkənin prezidentlərinin ilk rəsmi səfərlərini bir-birinin ölkəsinə etməsi artıq diplomatik ənənəyə çevrilib.

Bu gün Azərbaycanda 3400-ə yaxın Türkiyə şirkətinin, Türkiyədə isə 2300-dən çox Azərbaycan şirkətinin fəaliyyət göstərdiyini deyən Novruz Məmmədov qeyd edib ki, bu şirkətlər qarşılıqlı olaraq ölkə iqtisadiyyatına böyük həcmdə investisiya yatırırlar və bu da münasibətlərimizdə hərtərəfli inkişafın göstəricisidir.

"İkitərəfli müstəvidə uğurla inkişaf edən əməkdaşlıq münasibətlərimizlə yanaşı, ölkələrimiz beynəlxalq təşkilatlarda da fəal qarşılıqlı dəstək nümayiş etdirirlər. Beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında biz bir-birimizi həmişə dəstəkləyirik. Azərbaycanın və Türkiyənin rəsmi nümayəndə heyətlərinin hər hansı biri beynəlxalq tədbirlərdə iştirak etmədikdə, dəfələrlə digərinin mövqeyini müdafiə etməsinin qürurla şahidi olmuşuq. Biz ölkələrimiz və xalqlarımız, hətta Avrasiya üçün böyük önəm daşıyan nəhəng layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin tikintisi və istismarını birlikdə həyata keçirmişik", - deyə Baş nazir vurğulayıb.

Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə 2017-ci ilin oktyabrında açılışı olmuş Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Bakının Azadlıq meydanında keçirilmiş hərbi parad, bir neçə gün öncə Türkiyədə Azərbaycan tərəfindən 6,3 milyard ABŞ dolları yatırım edilmiş "STAR" neft emalı zavodunun açılışı ilə bağlı təşkil edilmiş möhtəşəm mərasim ölkələrimizin uğurunun, qardaşlığımızın bariz nümunəsi və təntənəsidir.

Novruz Məmmədov deyib: "Əlaqələrimizin daha da dərinləşməsində Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının, iqtisadi



əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın xüsusi rolunu vurğulamaq istərdim.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyi səyə və bizim haqlı mövqeyimizi daim müdafiə etdiyinə görə Türkiyə dövlətinə və xalqına minnətdarlığımı bildirirəm.

Əminəm ki, Azərbaycan ilə Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri hər iki dövlətin strateji hədəflərinə çatmasında mühüm rol oynayacaq".

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Müdafiə nazirinin müavini şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətini yoxlayıb





*Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev cəbhəboyu zonada yerləşən bölmələrdə şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətini yoxlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş növbətçiliyi aparan bölmələrdə olan nazir müavini Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Müdafiə Nazirliyi rəhbərliyinin hərbi qulluqçular qarşısında qoyduğu vəzifələri bir daha şəxsi heyətə çatdırıb.

Şəxsi heyətlə görüşən general-leytenant K.Vəliyev hərbi qulluqçuların qayğıları və sosial-məişət şəraiti ilə maraqlanıb, onları maraqlandıran sualları cavablandırıb.

# "Vətən sevgisindən güc alırıq biz!"



(Əvvəli 1-ci səhifədə)

Gizir hazırlığı kursuna qəbul olanda atama dedim ki, inşallah, təyinatım döyüş postuna olar. Bura təyin olunanda atam çox qürurlanmışdı. Səngərdə xidmət etmək ən böyük arzum olub. Bu gün fəxr edirəm ki, xidmət etdiyim hərbi hissə cəbhə bölgəsində yerləşir. Bu bizim məsuliyyətimizi daha da artırır. Mən və xidmət yoldaşlarım səngərdə həmişə ayıq-sayıq dayanmağa, düşmənin hər bir hərəkətini izləməyə çalışırıq. Hiss olunur ki, düşmən aprel döyüşlərindən sonra hələ də qorxu içindədir, özünə gələ bilməyib. Onlar gözəl bilirlər ki, sülh yolu ilə torpaqlarımızı geri qaytarmasalar, cəsur əsgərlərə malik şanlı Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əcdadlarımızdan miras qalan Vətən torpaqlarını hərb yolu ilə tezliklə geri qaytaracaq, - deyə gizir Əsgərov cavab verir.

Gizir Ş.Əsgərovla söhbətdən sonra Vətənin keşiyində dayanan belə igid, cəsur gənclərimizlə fəxr edirəm və Prezident, Ali Baş Komandan İlham Əliyevin sözlərini xatırlayıram: "Ordumuzda xidmət edənlərin əksəriyyəti gənclərdir. Mən çox şadam ki, gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar. Gənclərimiz bizim ümidimizdir. Gələcəkdə ölkəmizi onlar idarə edəcəklər. Mən çox şadam ki, orduda xidmət edən gənclər Vətənə bağlı olan insanlardır."

Döyüş növbəsini təhvil verən əsgərlərlə söhbətləşirik. Onların qətiyyətli sözləri, məğrur duruşları Ali Baş Komandanın gənclərimiz haqqında dediklərini bir daha təsdiq edir. Hər birinin Vətənə bağlı, ürəkləri Vətən sevgisi ilə döyünən oğullar olduğunun şahidi oluruq. İlk olaraq əsgər Elşad Mehdizadə söhbətə başlayır:

"Əsgəri xidmət hər birimizin övladlıq borcudur. Qoynunda böyüyüb boya-başa çatdığımız Vətənimizə xidmət etmək hər birimizin vətəndaşlıq borcudur. Havasından, suyundan qidalandığımız Vətən bu gün bizdən hünər gözləyir. Əsgəri xidmət böyük məktəbdir. Bu məktəbdə möhkəm dostlar əldə edirsən, dözümlülük, mərdlik, mətinlik qazanırsan. Əsgər olmaq, torpaqlarımızın keşiyində durmaq şərəflidirsə, döyüş postunda, səngərdə xidmət etmək ikiqat şərəflidir. Hərbi formanı geyindiyim ilk gündən arzum döyüş postunda xidmət etmək olub. Keçirilən məşğələlərdə daha məsuliyyətli və aktiv iştirak edirəm ki, bacarıqlı əsgər kimi formalaşım. Silahımın taktiki-texniki xüsusiyyətlərini, ondan düzgün istifadə etmək qaydalarını, sərrast nişan almağı mükəmməl öyrənmişəm. İstənilən an düşməni məhv etməyə hazıram. Vətənə bağlılığım və düşmənə olan nifrətim döyüş ruhumu artırır, növbətçilik zamanı ayıq-sayıq xidmət aparmağıma müsbət təsir göstərir. Daim çalışıram ki, nümunəvi xidmətimlə həm ailəmin, həm də komadirlərimin başını uca edim. Heç nədən korluq çəkmirik. Hər cür şəraitlə təmin olunmuşuq. Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edib, Qarabağımızda keçiriləcək möhtəşəm paradda nizami addımlarla tribuna önündən keçəcəyimiz günü səbirsizliklə gözləyirik".

Əsgərin sözləri mənə Bakının Qafqaz İslam Ordusu tərəfindən bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 100 illiyi münasibətilə keçirilən hərbi paradı xatırladır. Həmin gün düşüncələrim bir arzuya köklənmişdi. Qarabağın işğaldan azad olunmasının 10, 20... illik yubileylərini qeyd edəcəyimiz günləri xəyal etmişdim. Ordumuzda xidmət edən belə mərd oğulları tanıdıqca həmin düşüncələrin reallaşacağına əminliyim bir daha artır. Döyüş qabiliyyəti ilə yanaşı, hər əsgərin mənəvi-psixoloji hazırlığının yüksək olması, Vətən sevgisi ayrıca silahdır. Artıq hər kəs bilir ki, bu cür mənəvi keyfiyyətləri özlərində cəmləşdirən şəxsi heyətə malik ordumuz yenilməzdir və istənilən hərbi əməliyyatı yerinə yetirməyə qadirdir.

Xalqın güvənc yeri olan Vətən oğullarından daha biri fikirlərini bölüşür. Əsgər Pərviz Qurbanov hərbi xidmətə Quba rayonundan çağırılıb. O, hərbi xidmətin ona qazandırdığı keyfiyyətlərdən danışır:

- Əsgəri xidmətim məndə Vətənə bağlılıq, vətənpərvərlik hissləri aşılamaqla yanaşı, mətinlik, dözümlülük, qorxmazlıq formalaşdırdı, Vətən sevgisinin nə demək olduğunu öyrətdi, düşmənə nifrət hissimi artırdı. Artıq qarşıda dayanan düşmənin vəhşiliyinə yaxşı bələdəm. Burada hərbi biliklərə yiyələndim, fiziki və mənəvi-psixoloji cəhətdən formalaşdım. Silahımın xüsusiyyətlərini yaxşı öyrənib atıcılıq vərdişləri qazandım. Qəhrəman oğulların canı bahasına bizə əmanət edilən bu torpaqların hər qarışı üçün son damla qanıma qədər döyüşməyə hazıram. Vətənpərvər əsgər kimi formalaşmağımda komandirlərimə minnətdarlığımı bildirirəm.

Pərvizin sözləri hərbi xidmətin gənclərin həyatında vacib rol oynadığını bir daha təsdiqləyir.

Əsgər Kamran Mamedov digər əsgər yoldaşları kimi Vətən sevgisindən güc aldığını bildirir:

- Vətən sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Bu sevgi insanı ucaldan ən ülvi hissdir. Vətəni sevmək və bu sevgi uğrunda canından belə keçməyə hazır olmaq isə hər bir vicdanlı Vətən övladının borcudur. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək hər birimizin arzusudur. Artıq bu gün mən hazırlıqlı əsgər kimi səngərdə dayanmışam. Ön xətdə xidmət etmək ikiqat məsuliyyətlidir. Valideynlərim də fərəhlənirlər ki, oğulları Vətən qarşısında borcunu layiqincə yerinə yetirir, ön xətdə xidmət etməyinin qürurunu yaşayırlar. Xidmətə gəlməmişdən öncə qohum-əqrəbada hərbi xidmətdən qayıdanlarla söhbətlərim yadıma düşür. Xatirələri bitib tükənmirdi. Bəzən yarızarafat deyirdim ki, ilyarım hərbi xidmətdə olmusan, amma bir ömür əsgərlikdən danışırsan. İndi anlayıram ki, hərbi xidmət illəri o qədər dolğun, o qədər mənalı, o qədər maraqlı keçir ki, həvəslə, fəxrlə danışmağa bir ömürlük sözün var. Yeni dostlar qazanırsan, şəxsi məsuliyyət hissinin nə demək olduğunu anlayırsan.

Həmsöhbətlərimin əsgər adını daşımaqdan, torpaqlarımızın keşiyində dayanmaqdan qürur duyduqlarının şahidi olduqca, bir daha əmin oluruq ki, Azərbaycan Ordusunun vətənpərvər, qorxmaz, cəsur, Vətən uğrunda hər an döyüşə atılmağa hazır olan şəxsi heyəti var. Qətiyyətlə deyə bilirik ki, mövqelərimiz əmin əllərdədir və göz bəbəyi kimi qorunur.

**Leytenant
Samir HÜSEYNOV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**30 oktyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 31-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçisi Gennadi Petrika, ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov, Stefan Viskonti və onun şəxsi köməkçisi Küanti de Rankur, eləcə də Endryu Şofer və onun şəxsi köməkçisi Devid Börnşteyn keçirəcəklər.

AZƏRBAYCAN ORDUSU

Ordu quruculuğu

# "Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin"

*Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və modern ordusuna sahibdir. Ali Baş Komandanın hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən amillər sırasındadır.*

Ön xətdə xidmət edən şəxsi heyətə mübarizə əzmi aşılamaqla Ali Baş Komandan bir daha orduya diqqət və qayğısını əsirgəmədiyini nümayiş etdirir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alaraq bizim qarşımızda duran əsas vəzifə hərbi kadrların peşəkarlıq səviyyəsini artırmaq, müdafiə potensialını möhkəmləndirmək, ordumuzun gücünü və hərbi qüdrətini daim yüksəltməkdir. Bu isə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi üçün başlıca şərtdir.



Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır və ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Mərkəzində təşkil olunan rəsmi qəbulda Prezident İlham Əliyev qazanılan uğuru müstəqillik dövrünün ən böyük nailiyyətlərindən biri hesab etdiyini vurğulayıb: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir".

Hazırda dünya hərb sənayesinin ən son yenilikləri olan silah-sursat Azərbaycan Ordusunun arsenalında yer alır. Dövlət başçısının baxış keçirdiyi "Polonez" və "Lora" əməliyyat-taktiki raket kompleksləri dünyada cəmi bir neçə orduda var. Son vaxtlara qədər "İsgəndər"lə öyünən ermənilər indi dərin təlaş keçirirlər. Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrdə irimiqyaslı köklü islahatların keçirilməsi, ordunun ən müasir, yüksək dəqiqlikli və böyük dağıdıcı gücə malik olan silah və hərbi texnika ilə təchizatı vəzifəsini qarşıya qoyub. Bu vəzifənin icra edilməsi çərçivəsində cəmi 3-4 il ərzində ordunun zirehli döyüş texnikası parkı böyük ölçüdə yenilənib. Hazırda Azərbaycan Ordusunun raket-artilleriya qoşunlarının silahlanmasında yer alan artilleriya qurğuları, reaktiv artilleriya sistemləri o qədər çoxsaylıdır ki, onlardan eyni vaxtda bir yaylım atəşi açılsa, düşmənin bütün mövqeləri darmadağın olar. Təbii ki, Azərbaycan bununla kifayətlənmir və qarşıda bütövlükdə işğal altında olan torpaqların azad edilməsi məqsədinin durduğunu bütün dünyaya bəyan edir. Dövlət başçısı İlham Əliyev bununla bağlı verdiyi mesajlar dünya KİV-lərinin diqqətini çəkməklə yanaşı, erməni ekspertlərin də analiz predmetinə çevrilir. Məsələn, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi şərəfinə təşkil edilmiş hərbi paraddakı nitqində vurğulamışdır: "Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək. Ona görə, hesab edirəm ki, məsələnin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi qarşı tərəfin də marağında olmalıdır".

Ermənistan rəhbərliyini və ictimaiyyətini qorxuya salan əsas məqamlardan biri də bundan ibarətdir. Azərbaycan Ermənistanın istənilən strateji obyektini məhv edə bilər. Bunun üçün hərbi güc, peşəkarlıq və siyasi iradə vardır. Bütün bunlar Azərbaycanın hərbi gücünün konkret faktlarda təsdiqidir. Eyni zamanda, onun geosiyasi mənası da mövcuddur. Ermənistan ekspertləri Prezident İlham Əliyevin ciddi mesajlar verdiyini etiraf edirlər. Onların bir qismi açıq yazır ki, Azərbaycan Ordusu sürətlə silahlanır və addım-addım İrəvan istiqamətində irəliləyir. Bu baxımdan erməni əsilli rusiyalı ekspert Armen Qasparyanın yanaşmaları erməni "ekspert" dairələri arasında ciddi təlaşın yaşandığının təsdiqi kimi də dəyərləndirilə bilər. Qasparyan yeni Ermənistan rəhbərliyini faktiki olaraq Azərbaycan qarşısında acizlikdə ittiham edir, onu simmetrik tədbirlər görməməkdə təqsirləndirir. Azərbayan Ordusunun hərbi xərclərinin 2003-cü ildən bəri 15 dəfə artırılması ilə bağlı Prezident İlham Əliyevin mövqeyinə şərh verən erməni "ekspert" Azərbaycanın "total müharibəyə" hazırlaşdığını vahimə içərisində bəyan edir. Bu vəziyyətdə Ermənistan rəhbərliyindən konkret və adekvat mövqe gözləməyin əbəs olduğuna ehyam vuran Qasparyan bütün ümidlərini beynəlxalq ictimaiyyətə bağlayır. Sonra isə məyus halda bu kəlmələri işlədir: "Beynəlxalq ictimaiyyət də yəqin ki, növbəti dəfə susmağa üstünlük verəcək". Bir neçə gün öncə isə erməni politoloq Suren Sarkisyan öz "Facebook" səhifəsində bunları yazıb. "Aylar öncə Bell-412 helikopterləri barədə danışmışdım. Bizim ictimaiyyət arasında çoxları iddia edirdi ki, həmin helikopterlər mülki təyinatlıdır və narahat olmağa heç bir səbəb yoxdur. İndi Azərbaycanın tamamilə hərbi təyinatlı MD-530F tipli hücum helikopterləri var. Əgər keçən dəfə böyük səs-küy qaldırsaydıq, indi belə şey olmazdı". Qeyd edək ki, bu gün ordumuz Ermənistanın paytaxtının 80 kilometrliyini belə nəzarətdə saxlaya bilir. Azərbaycan Ordusunun istifadəsində 300 kilometr məsafəni vura bilən mobil raket sistemləri mövcuddursa, bu, istənilən an Ermənistanın strateji obyektlərinin yerlə-yeksan oluna bilməsi deməkdir.

**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**

## Azərbaycan və Belarus hərbi topoqraflarının görüşü keçirilib



Bakı şəhərində Azərbaycan və Belarus hərbi topoqrafiya üzrə ekspertlərdən ibarət nümayəndə heyətlərinin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlara naviqasiya, hidroqrafiya və hidrometeorologiya fəaliyyətlərinin yerinə yetirilməsi mövzusunda brifinqlər təqdim olunub, ordumuzda mövcud olan müasir texniki avadanlıqların imkanları nümayiş etdirilib, həmçinin onları maraqlandıran suallar cavablandırılıb.

Tərəflər hərbi topoqrafiya, geodeziya və kartoqrafiya sahəsində təcrübənin öyrənilməsi və tətbiqi barədə fikir mübadiləsi aparıblar.

## Sıçrayış marşı üzrə yarışlar keçirilir

*Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında Müdafiə nazirinin əmrinə əsasən, hərbi birliklərdə sıçrayış marşı üzrə yarışlar keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, motoatıcı, əməliyyat və kəşfiyyat bölmələrinin cəlb olunduğu yarışlarda komandalar müxtəlif məsafələrdə müəyyən olunmuş marşrut üzrə güclərini sınayırlar.

Birincilik uğrunda mübarizədə iştirak edən hərbi qulluqçular bölmələr tərkibində ştat silahları və tam təchizat ilə uzun məsafələri sürətlə qət etməklə dözümlülük və bacarıqlarını təkmilləşdirirlər.

# Cənubi Afrika Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı Bakıda səfərdədir



VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində ölkəmizdə səfərdə olan Cənubi Afrika Respublikasının (CAR) Hərbi Dəniz Qüvvələri (HDQ) komandanı vitse-admiral Musava Hlonqvane Azərbaycan HDQ-də və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, vitse-admiral M.Hlonqvane HDQ-nin Qərargah rəisi 1-ci dərəcəli kapitan Şahin Məmmədovla görüşüb və 1987-1991-ci illərdə təhsil aldığı AAHM-nin hərbi dəniz fakültəsini ziyarət edib.

# Hərbi birlikdə döyüş atışlı təlim keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, senariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edib.

# ABŞ-da Zəngilan rayonunun işğalı haqqında məlumatlandırma kampaniyası aparılır

*ABŞ Azərbaycanlıları Şəbəkəsi Azərbaycanın Zəngilan rayonunun işğalının 25-ci ildönümü ilə əlaqədar Amerika ictimaiyyətini məlumatlandırma kampaniyasına başlayıb.*

Prezident Donald Tramp, dövlət katibi Maykl Pampeo, ABŞ Konqresinin üzvləri, ştatların qanunvericiləri və administrasiyaları, habelə ABŞ KİV-lərinə ünvanlanan müraciətdə qeyd olunur ki, Zəngilan rayonuna hərbi təcavüz nəticəsində 83 yaşayış məskəni işğal edilib, 35 mindən çox azərbaycanlı doğma yurdundan didərgin düşüb.

Bununla bağlı 1993-cü il noyabrın 12-də BMT Təhlükəsizlik Şurası erməni təcavüzünü pisləyən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edən 884 nömrəli qətnamə qəbul edib. Müraciətdə, həmçinin deyilir ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini (822, 853, 874, 884), BMT Baş Assambleyasının 62-243 nömrəli qətnaməsini və Avropa Şurası Parlament Assambleyasının erməni təcavüzünü pisləyən 1416 nömrəli qətnaməsini hələ də yerinə yetirmir. Bundan əlavə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində xaricdən gəlmiş etnik erməniləri məskunlaşdırmağa davam edir, bununla da beynəlxalq hüququ pozur.

Müraciətdə, həmçinin Azərbaycan rayonlarının işğalı və ölkəmizdə məcburi köçkünlərə dair statistik məlumatlar əksini tapıb.

*Təlim*

# "Artilleriyaçı olmaq böyük məsuliyyət tələb edir"

*Ölkəmizdə aparılan hərbi islahatlar nəticəsində hərbi təlim, döyüş hazırlığı özünün bütün parametrləri ilə daha çox əhəmiyyət daşımaqla xüsusi diqqət mərkəzində dayanır. Azərbaycan əsgərinin formalaşdırılması, onun bir döyüşçü kimi yetişdirilməsinin ağırlıq mərkəzi məhz döyüş hazırlığının üzərinə düşür. Bu vəzifənin yerinə yetirilməsində Azərbaycan Ordusunun hazırlıqlı kadr heyəti əsas vasitələrdən biri olaraq həlledici rol oynayır. Təcrübələr onu göstərir ki, döyüş səhnəsində hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri xüsusi rol oynayır.*



Xüsusi hazırlıq vasitəsilə əsgərlər taktiki hazırlıq, atəş hazırlığı, topoqrafiya, kütləvi qırğın silahları və təbii fəlakətlərin dağıdıcı amillərinin fəsadlarından mühafizə və ilk tibbi yardım üzrə bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Bu sahədə əldə edilmiş bacarıqlar əsgərlərə döyüş zamanı vəziyyətdən çıxış üçün düzgün qərar qəbul etmək imkanı yaradır.

Bu fikirləri "N" hərbi hissəsinin artilleriya divizion komandirinin şəxsi heyətlə iş üzrə müavini mayor Firudin Mikayılovla müzakirə edəedə bölmənin döyüş hazırlığı məşğələsi ilə məşğul olan şəxsi heyətinə yaxınlaşırıq. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər.

- Dərs kiçik bir döyüş mühitidir, uzun olmayan təlim şəraitidir. Əsgərlər bu prosesdə öyrənməklə yanaşı, həm də müəyyən təcrübələrə yiyələnirlər. Təlimin, keçirilən döyüş hazırlığı dərslərinin əsgərlərin formalaşmasında əhəmiyyəti böyükdür. Onlar dəqiqlik, konkretlik, çeviklik, intizamlılıq, dözümlülük kimi yüksək dəyərləri daha çox məşq prosesində əldə edə bilirlər, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Niyaməddin Hüseynzadə bizimlə söhbətində bildirdi.

- Cəbhəboyu zonada yerləşən hərbi hissənin minaatan bölmələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılır, - deyə kapitan Mirdamət Seyidov söhbətə başladı. - Dağmeşəlik və düzənlik ərazilərdə keçirilən praktiki məşqlərə cəlb olunan şəxsi heyət 60 millimetrlik minaatan komplekslərindən şərti düşmənin yüngül zirehli texnikası, canlı qüvvəsi və atəş nöqtələrini imitasiya edən, eləcə də təbii maneələrin arxasında yerləşən və müşahidə edilməyən digər hədəfləri məhv etmək tapşırıqlarını yerinə yetirir. Keçirilən məşqlərdə bölmələrin döyüş və səfər düzülüşü, hədəflərin təyin edilməsi, atış yerinin seçilməsi, mövqeyin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edilir. Bu təlimlərin əsas məqsədi əsgərlərin vərdişlərinin təkmilləşdirilməsindən, eləcə də ağır şəraitdə aparılan müasir döyüş hazırlığının səviyyəsinin artırılmasından ibarətdir.

Salyan rayonundan hərbi xidmətə çağırılan əsgər Kamran Hüseynov artilleriya bölməsində xidmət edir. Keçirilən dərslərin hesabına vacib artilleriya silahı olan minaatanın taktiki-texniki xüsusiyyətlərini yüksək səviyyədə mənimsəyib: "Hücuma hazırlıq zamanı artilleriyadan açılan sərrast atəş döyüşün taleyini həll edir. Ona görə də bizlər bütün silahların, xüsusən də minaatanın taktiki-texniki xüsusiyyətlərini dərindən öyrənməliyik. Bu işdə dəqiqlik xüsusi əhəmiyyət daşıyır. Gördüyünüz silah imkan verir ki, dəqiqliyə əməl etməklə dərinlikdə yerləşən düşmənin canlı qüvvəsini, istehkam qurğularını məhv edə bilək. Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrini atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün onların bizə verdiyi hədəfləri sıradan çıxarmalıyıq. Əsgər kimi bu hərbi texnika ilə necə davranmağın sirlərini yaxından öyrənir, özümüzü ən ağır artilleriya döyüşlərinə hazırlamağa çalışırıq. Komandirlər mütəmadi olaraq məşğələlər keçirir, dərslər bilavasitə atəş mövqeyində aparılır. Minaatan da digər artilleriya silahları kimi genişmiqyaslı döyüş əməliyyatlarının taleyini müəyyən edən bir silahdır. Əsgərlərimiz dəqiq koordinatlar əsasında minaatanla zərbə endirmək qabiliyyətinə malikdirlər".

Əsgər Fərhad Abdulsalamov hesab edir ki, qısa müddətdə yetkin heyət nəfəri kimi formalaşıb: "Mənim əsas vəzifəm bölmənin baş zabitindən aldığım tapşırıqları yerinə yetirməkdir. Belə ki, minaatanı vaxtında döyüşə hazırlamaq, heyəti döyüşə hazır vəziyyətə gətirmək, lazımi istiqamətlərə atəş açaraq verilmiş tapşırıqları yerinə yetirmək əzmindəyik".

Əsgər Mais Paşayev bildirdi ki, artilleriyaçı olmaq böyük məsuliyyət tələb edir: "Artilleriya döyüşün gedişinə əsas təsir göstərən hərbi vasitədir. Burada müxtəlif artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərinə yiyələnmişəm. Aprel və Günnüt döyüşlərinin davamı gələrsə, sözsüz ki, sərrast atəşlərimizlə düşməni məhv edəcəyimizə əminik".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**:
**1. Azərbaycan Respublikasında vətəndaşların hüquqi məsuliyyəti.**
**2. Hərbi xidmət əleyhinə olan cinayətlər.**
**3. Hərbi qulluqçuların hüquqi məsuliyyəti.**

**Mövzu:** Hərbi xidmət əleyhinə olan cinayətlər. Hərbi qulluqçuların hüquqi məsuliyyəti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu məşğələyə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının, hərbi qanunvericilik aktlarının, Hərbi andın və hərbi nizamnamələrin tələblərini diqqətlə öyrənmək və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Respublikasında vətəndaşların hüquqi məsuliyyəti*

Hər bir cəmiyyətin normal həyatı üçün müəyyən qaydaların mövcud olması və ictimai-sosial münasibətlərin nizama salınması zəruridir. Həmin qaydalara, cəmiyyətin həyat fəaliyyətinin nizamlanmasına onun üzvlərinin davranışını müəyyən edən hüquqi normaların köməyi ilə nail olunur. Ancaq ictimai-sosial münasibətlərə hüquqi çərçivədə təsir göstərən digər amillər də vardır ki, bunlar da əxlaqi və dini normalar, adət və ənənələrdir.

Hüquqi məsuliyyət dedikdə, Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, qüvvədə olan hüquqi sənəd və aktların tələblərinin icrasına dövlətin məcburetmə formasının verilməsi başa düşülür.

Müasir Azərbaycan dövlətçiliyinin banisi ulu öndər Heydər Əliyev gənclərimizə Azərbaycan Respublikasının Konstitusiyasını öyrənməyi tövsiyə edərək demişdir: "Konstitusiyada hər bir vətəndaşın hüquqları və azadlıqları öz əksini tapıbdır, eyni zamanda hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Vəzifələr isə, şübhəsiz ki, hər bir vətəndaşın özünün üzərinə düşən borcdur, məsuliyyətdir".

Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu isə hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini, vəzifəsini əhatə edir.

Konstitusiyanın 72-ci maddəsinə görə, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək vətəndaşı məsuliyyətdən azad etmir.

Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Hər bir şəxs dərk etməlidir ki, hüquq pozuntusuna yol verdikdə onun dövlət qarşısında məsuliyyət vəzifəsi yaranır və belə hallarda dövlət öz məcburetmə formalarını tətbiq etməkdə haqlıdır. Hər bir demokratik cəmiyyətdə hüquqi məsuliyyətin geniş dərk edilməsinin sosial əhəmiyyəti böyükdür və belə bir cəmiyyətə malik olan ölkə hüquqi dövlət quruculuğu yolunda mühüm nailiyyətlər əldə etməyə qadirdir. Hüquqi məsuliyyətin iki ümumi və konkret məqsədi vardır. Ümumi məqsəd demokratik quruluşun şərtlərini hüquqi cəhətdən təmin etməkdən ibarətdir. Hüquqi məsuliyyətin məqsədi - demokratik hüquq qaydasını pozuntulardan mühafizə və müdafiə etməkdən, vətəndaşları hüquqi cəhətdən, hüququ pozanları isə yenidən tərbiyə etməkdir.

Cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar.

### *Hərbi xidmət əleyhinə olan cinayətlər*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin vəzifəsi sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışı Azərbaycan Respublikası CM-in 327-ci maddəsi ilə müəyyənləşdirilir. Həmin maddəyə görə, çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

Hərbi xidmət əleyhinə olan cinayətlərin təsnifatı CM-in XII bölməsinin 35-ci fəslində verilmişdir. Bu fəslə 27 maddə daxildir.

**Hərbi xidmət əleyhinə olan cinayətləri törədilmə xarakterlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:**

- hərbi qulluqçular arasında tabelik münasibətləri olduqda və ya olmadıqda qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma xarakterli cinayətlər (CM-in 328-332-ci maddələri);
- hərbi hissəni özbaşına tərketmə, fərarilik, öz sağlamlığına zərər vurmaq və s. üsulla hərbi xidmətdən yayınma məqsədilə törədilən cinayətlər (CM-in 333-335-ci maddələri);
- qarovul, daxili xidmət, patrul, döyüş növbəsi və digər xidmət qaydalarını pozmaqla törədilən cinayətlər (CM-in 336-340-cı maddələri);
- vəzifəli şəxslərin öz səlahiyyətlərindən sui-istifadəsi və ya vəzifə borclarına səhlənkar yanaşması, döyüş meydanını özbaşına tərk etmələri nəticəsində törədilən cinayətlər (CM-in 341-346-cı maddələri);
- hərbi əmlakı itirmə, zədələmə, xarab etmə və ya məhv etmə ilə nəticələnən cinayətlər (CM-in 347-349-cu maddələri);
- silahla və ya digər təhlükə törədən əşyalarla davranış, maşınların istismarı, uçuş və uçuşa hazırlıq, hərbi gəmiləri idarəetmə qaydalarını pozma nəticəsində törədilən cinayətlər (CM-in 350-353-cü maddələri).

Törətdiyi cinayət üçün intizam cəzası almış hərbi qulluqçu cinayət məsuliyyətindən azad edilmir və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə məsuliyyət daşıyır.

### *Hərbi qulluqçuların hüquqi məsuliyyəti*

Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini, onun hər bir vətəndaşının müqəddəs borcu və qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olarkən hər bir vətəndaş Hərbi andı qəbul edir və andını pozarsa, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazır olduğunu elan edir.

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki: Azərbaycanın mənafeyini qorusun; onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin; Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi anda müqəddəs və sarsılmaz surətdə riayət etsin; intizamlı, vicdanlı, doğrucu və cəsarətli olsun; hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını belə əsirgəməsin; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin; öz hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorusun.

Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli; sayıq olmalı, dövlət sirrini ciddi surətdə saxlamalıdır.

**Hərbi qulluqçuların hüquqi məsuliyyətinin hərbi xidmətdən irəli gələn xüsusiyyətləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fəaliyyətini tənzim edən qanunlarla, Hərbi and, hərbi nizamnamələr və digər hərbi normativ aktlarla (əmrlər, direktivlər, sərəncamlar və s.) müəyyən edilir. Həmin xüsusiyyətlərin ən mühümlərini nəzərdən keçirək:**

- hüquq pozuntularının (hərbi xidmət əleyhinə olan cinayətlər, hərbi intizam pozuntuları) xüsusi dairəsi dövlət tərəfindən müəyyən edilir;
- komandirlər (rəislər) tabeliklərində olan hərbi qulluqçuları hüquqi məsuliyyətə cəlb etmək üçün xüsusi səlahiyyətlərə malikdirlər;
- komandirlərin (rəislərin) hərbi qulluqçulara tətbiq etdikləri hüquqi məsuliyyət tədbirlərinin icrasının xüsusi şərtləri müəyyən edilmişdir;
- yalnız hərbi qulluqçulara tətbiq edilməli olan xüsusi məsuliyyət tədbirləri müəyyən edilmişdir.

**Bütün hərbi qulluqçular rütbələrindən və vəzifələrindən asılı olmayaraq qanun qarşısında bərabərdirlər və onlar:**

- hərbi intizamın və ictimai asayişin pozulması ilə bağlı nalayiq hərəkətlərə, eləcə də əxlaq qaydalarına zidd hərəkətlərə görə - ictimai təsir tədbirlərinə;
- hərbi intizamı pozduqlarına görə - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində müəyyən edilmiş qaydada intizam məsuliyyətinə;
- inzibati xətalara görə - Azərbaycan Respublikasının inzibati qanunvericiliklə müəyyən edilmiş ümumi əsaslarla inzibati məsuliyyətə və ya Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində müəyyən edilmiş qaydada intizam məsuliyyətinə;
- mülki qanunvericiliklə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsinə görə və ya hərbi xidmət vəzifələrini icra etmədikləri vaxt dövlətə və vətəndaşlara vurduqları ziyana görə - mülki-hüquqi məsuliyyətə;
- hərbi xidməti yerinə yetirərkən, dövlətə vurduqları maddi ziyana görə - "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnaməyə müvafiq olaraq maddi məsuliyyətə;
- cinayət törətdiklərinə görə - cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

Hərbi qulluqçu ezamiyyətdə, məzuniyyətdə, tibb müəssisəsində müalicə zamanı və digər hallarda törətdiyi nalayiq hərəkətlərə görə böyük rəislərdən aldığı intizam cəzası barədə daimi xidmət yerinə qayıdan kimi özünün bilavasitə rəisinə məlumat verməlidir, əks təqdirdə o, bu iş üçün inzibati məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna, vətənpərvərlik borclarını dərindən dərk etmələrinə və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanır. Lakin bunlar öz hərbi borcuna etinasız yanaşan hərbi qulluqçulara məcburiyyət tədbirlərinin tətbiqini istisna etmir.

Hərbi hissələrdə şəxsi heyətin hüquqi tərbiyəsi məqsədi ilə hüquq hazırlığı keçirilir və Azərbaycan Respublikasının qanunları, hərbi qanunvericilik aktlarının tələbləri haqqında ətraflı məlumatlar verilir. Aparılan ciddi hüquqi-profilaktik tədbirlər nəticəsində cinayət və hadisələrin sayı qat-qat azalmışdır. Bütün bunlar isə ordunun döyüş qabiliyyətinin və döyüş hazırlığının yüksəldilməsi, hərbi hissələrin döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsi üçün ən vacib amillərdəndir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ordu və cəmiyyət

# Ədəbiyyat da müsəlləh əsgərdir

*Ədəbiyyat həmişə cəmiyyətin düşüncələrinin, düşüncələr sisteminin idarəçisi olub. İstər milli-mənəvi dəyərlərin formalaşmasında, istərsə də dövlətlə, dövlətçiliklə bağlı məsələlərə münasibətdə ədəbiyyat əhəmiyyətli rol oynayır, şifahi xalq ədəbiyyatımızdan günümüzün ədəbiyyatına kimi bu funksiya böyük istəklərlə, amalla yerinə yetirilib.*



Ötən il Müdafiə Nazirliyi ilə Yazıçılar Birliyi müştərək memorandum imzaladı. Birgə tədbirlər planı təsdiq edildi. Bu plan müəyyən mənada, ordu-ictimaiyyət münasibətləri baxımından müstəsna əhəmiyyətə malik təşəbbüs kimi dəyərlidir, müharibə şəraitində ədəbiyyatımız da xalq şairi Səməd Vurğunun dediyi kimi, müsəlləh əsgər oldu. Memorandum imzalananda Müdafiə naziri general-polkovnik Zakir Həsənov məhz o amilə xüsusi diqqət yetirilməsini tövsiyə etmişdir...

Ədəbiyyat əsgərin mənəvi-psixoloji hazırlığında olduqca əhəmiyyətlidir. Yazıçılar Birliyi ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində bilavasitə iştirak edir. Birliyin sədri, xalq yazıçısı Anar bu iştirakı ədəbiyyatımızın başlıca vəzifəsi olduğunu qeyd etmişdi...

2018-ci il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyidi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi. Ordumuzun 100 illiyi də, Bakının azad edilməsinin 100 illiyi də, paradlar da daxil olmaqla möhtəşəm qeyd edildi. İctimaiyyət bu paradları torpaqlarımızın işğaldan azad ediləcəyinə böyük inam kimi izlədi; 2018-ci il Azərbaycan Ordusunun ilidi. Yazıçılar Birliyi bu tarixi hadisəni də tarixləşdirmək istəyir - 100 illik yubileyə həsr olunmuş kitab nəşr olunacaq; tarix - ədəbiyyat üçün ədəbi materialdır, kitabdır, kitablardır, kitablar tarixdir.

Azərbaycan Ordusu 2016-cı ilin aprelində möhtəşəm qələbə qazandı. Bu qələbə çağdaş ədəbiyyatımıza da, jurnalistikamıza da təsir göstərdi, gərəkli əsərlər yazdı. Eləcə də Günnüt zəfəri. Yazılanlar da, yazılacaqlar da Azərbaycan Ordusunun qüdrətinin, ədəbi dəyərinin ifadəsidir. Yazıçılar Birliyinin nəşr etdirəcəyi kitab da bu prosesin tərkib hissəsidir. Şübhəsiz, həm qələbənin tarixləşdirilməsi, həm də ordunun yubileyinə ehtiram baxımından diqqəti çəkir. Kitaba 16 müəllifdən götürülən müsahibələr daxil ediləcək...

Hər məqalə bu və ya digər hadisəyə bir münasibətdir. Hadisə dövlətçiliklə bağlıdırsa, münasibət bildirən cəmiyyətdə, müəyyən mənada, söz sahibidirsə, belə məqalələrin ictimai dəyəri danılmazdır. Yazıçıların, elm adamlarının ordu ilə bağlı fikirlərini əks etdirəcək kitab da belə məqalələr kitabıdır. Xalq şairi Nəriman Həsənzadənin təbirincə desək, bu kitab sözün orduya ehtiramı kimi tərtib edilib, belə oxunacaqdır.

Azərbaycan Yazıçılar Birliyində kitabın nəşrə hazırlanması ilə əlaqədar Birliyin Ağsaqqallar Şurasının işçi qrupunun toplantısı keçirildi. Kitabın nəşri ilə bağlı bu və ya digər məsələlər müzakirə edildi. Xalq şairləri Nəriman Həsənzadə, Fikrət Qoca, Birliyin sədrinin köməkçisi Rauf Aslanov, Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Emin Səfərov iştirak etdilər.

**"Azərbaycan Ordusu"**

# Gənclərin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir

Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində yekun-hesabat tədbiri baş tutub. Tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması yolunda canından keçmiş, Vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ olunmasıdır.

İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, Əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların, ictimaiyyətin və media nümayəndələrinin iştirak etdiyi tədbir Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu cür layihələrin mütəmadi olaraq həyata keçirilməsinin mühüm əhəmiyyət kəsb etməsini, belə tədbirlərin daimi xarakter daşımasının və geniş auditoriyanı əhatə etməsinin zəruri olduğunu qeyd etdi. C.Xəlilov Respublika Veteranlar Təşkilatının və onun şəhər, rayon struktur bölmələrinin yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində səmərəli fəaliyyətindən, bununla bağlı müntəzəm olaraq tədbirlərin keçirilməsindən danışaraq, diqqəti Azərbaycanın bu gün Ermənistan Respublikasının işğalı altında olan ərazilərinin azad olunmasında bu işlərin daha yüksək səviyyəyə qaldırılmasının mühüm əhəmiyyət daşıdığına yönəltdi.

Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev layihə çərçivəsində həyata keçirilmiş tədbirlər, görülmüş işlər, o cümlədən şəhidlərə həsr olunmuş "Torpağı Vətən edənlər" kitabçasının və məlumat xarakterli xüsusi bukletin buraxılması barədə geniş məlumat verdi. Tədbirdə çıxış edən layihənin eksperti Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Adil Haqverdiyev, İkinci Dünya müharibəsi veteranı, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov, "Şəhid ailələrinə qayğı cəmiyyəti" təşkilatının Nizami rayon Təşkilatının sədri Nizami Abbasov, veteran şair Zakir Əliyev və başqaları çıxış edərək yeniyetmə və gənclər arasında vətənpərvərlik mövzusunda bu tipli layihələrin keçirilməsinin vacibliyini diqqətə çatdırdılar.

Tədbirdə, eyni zamanda 3 ay müddətində həyata keçirilmiş "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsinin fəaliyyət planına uyğun olaraq görülmüş işlər barədə müzakirələr aparıldı, fikirlər səsləndirildi, təkliflər verildi.

Tədbirin sonunda 95 yaşı tamam olan İkinci Dünya müharibəsi veteranı, Nəsimi rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov Respublika Veteranlar Təşkilatının təsis etdiyi "Mehmandarov yubiley medalı" ilə təltif olundu.

**"Azərbaycan Ordusu"**



# "Konflikt jurnalistikası məktəbi"nin növbəti auditoriya təlimi keçirildi

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində növbəti auditoriya təlimi keçirildi.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti Əfqan Əliyev iştirakçıları salamlayaraq, düşmənlə təmas xəttində baş verən hadisələrin ictimaiyyətə ilk mənbədən, dolğun və dəqiq çatdırmağın əhəmiyyətindən söz açdı. Zabit əvvəllər yaranmış problemlərə yol verməmək üçün jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimat hazırlandığını bildirdi. Zabit onu da qeyd etdi ki, Müdafiə Nazirliyi informasiyanın media qurumlarına ötürülməsi məqsədilə zəruri işlər görür, jurnalistlərin akkreditasiyadan keçməsini diqqətdə saxlayır.

Polkovnik-leytenant Rəşad Atakişiyev hərbi hissənin yaranma tarixi, həmçinin aviasiya bazasının fəaliyyəti barədə geniş məlumat verdi. "Hərbi Hava Qüvvələrinin təyinatı respublikamızın hava məkanını nəzarətdə saxlamaq, hava məkanını pozmuş düşməni zərərsizləşdirməklə sərhədlərimizin müdafiəsini təmin etmək, vizual müşahidə olunan hədəfləri (yer və dəniz hədəflərini) məhv etməkdir. Döyüş zamanı aviasiyanın havada üstünlüyün əldə edilməsində böyük rolu var. Hava Hücumundan Müdafiə Qoşunlarının tərkibində olan nəqliyyat təyyarələri, döyüş nəqliyyat və desant-nəqliyyat helikopterləri qoşunların və maddi vasitələrin hava yolu ilə daşınmasına, onların döyüş əməliyyatlarının manevrinin yüksək səviyyədə təmin edilməsinə də imkan verir. Pilotların ustalıq vərdişləri daim təkmilləşdirilir. Bu gün Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələri ən müasir helikopterlərlə təmin olunub. Bu da imkan verir ki, HHMQ-nin şəxsi heyəti hava məkanımızın təhlükəsizliyini tam təmin etsin. Hərbi Hava Qüvvələrinin iştirak etdiyi təlimlər, aprel döyüşləri, bu il keçirilən möhtəşəm paradlar da dediklərimizin sübutudur.



Mayor Babək İskəndərov isə iştirakçılara bölmələrin döyüş tapşırığının yerinə yetirilməsini təmin etmək məqsədi ilə döyüş uçuşuna üç hazırlıq dərəcəsinin müəyyən edilməsi və hava hücumundan müdafiə vasitələri haqqında məlumat verdi. Həmçinin hava məkanındakı kəşfiyyat məlumatlarının toplanılması və təhlili qaydalarını izah etdi.

Auditoriya təlimindən sonra təlimalanlar hərbi hissənin ərazisindəki mövcud infrastruktur-la, silah və texnikalarla, məşq qurğuları ilə yaxından tanış oldular.

**Baş leytenant Orxan HÜSEYNLİ, "Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Hərbi təhsil*

# “Vətənə sədaqətlə xidmət edəcəyik”

*Naxçıvanda ilk hərbi təhsil müəssisəsi olaraq 1998-ci ildən filial kimi fəaliyyətə başlayan Heydər Əliyev adına Hərbi Lisey ötən dövr ərzində ordu quruculuğuna öz layiqli töhfələrini verib. Ulu öndər Heydər Əliyevin xatirəsini əbədiləşdirmək və ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamından sonra təhsil müəssisəsi müstəqil Hərbi lisey kimi fəaliyyətini daha da genişləndirib. Müasir tədris imkanlarına malik olan Hərbi liseyin kollektivi yaradılan imkanlardan maksimum faydalanaraq peşəkar zabit kadrların formalaşması istiqamətində səylərini əsirgəmir. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan təhsil müəssisəsinin ötən dövr ərzində qazandığı nailiyyətlər də az deyil.*





Belə ki, son 5 il ərzində Hərbi liseyi 4 nəfər qızıl, 4 nəfər gümüş və 11 nəfər fərqlənmə attestatı ilə bitirib. 10 nəfər kursant Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarının qalibi olub. 2 nəfər qızıl, 1 nəfər gümüş, 7 nəfər bürünc medal qazanıb. Yeni tədris ilində II kurs kursantı Cəmşid İsmayılov Rusiyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən rus dili fənni üzrə olimpiadanın qalibi olub.

Ötən 20 il ərzində Hərbi liseyi 3 minə yaxın kursant bitirib. Liseyin yetirmələri bu gün Silahlı Qüvvələrdə və digər güc strukturlarında ləyaqətlə xidmət edirlər. Azərbaycanın ərazi bütövlüyünün qorunmasında iştirak edən liseyin şəhid məzunları isə kursantlar üçün vətənpərvərlik nümunələridir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 iyun 2018-ci il tarixli qərarı ilə Hərbi liseylərə qəbul qaydalarında dəyişikliyə əsasən bu ildən etibarən təhsil müddəti iki il müəyyənləşdirilib. Bu ümumi təhsil pilləsinin tam orta (X-XI siniflər) təhsil səviyyəsini əhatə edir. 15 yaşı tamam olmuş, 17 yaşı tamam olmayan gənclər oxumaq üçün liseylərə sənəd verə bilərlər. Bu səbəbdən Heydər Əliyev adına Hərbi liseyə bu il qəbul qismən keçirilib. İmtahanda iştirak edən 328 nəfər arasından yüksək bal toplayan 29 nəfər seçilərək liseyin birbaşa II kursuna qəbul olunublar. Həmin kursantlardan bir neçəsi ilə həmsöhbət olduq.

Kursant Rüstəm Əliyev Şərur rayonunun Axaməd kəndindəndir. Əmisi oğlu Əli Əliyev də liseyin kursantıdır. "O həmişə formada kəndə gələndə həsədlə baxırdım. İndi özüm əynimdə kursant forması ilə kəndə gedəndə qürurlanıram", - deyən Rüstəmi Hərbi liseyə gətirən əsas səbəb peşəkar bir zabit kimi Silahlı Qüvvələrdə xidmət etmək istəyidir: "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilən hərbi paradı televiziya vasitəsilə izlədim. Müxtəlif növ ən yeni silah və texnikaların nümayiş etdirildiyi parad bir daha Azərbaycan Ordusunun gücünü nümayiş etdirdi. Bir gənc olaraq ordumuzla fəxr etdim. Gələcəkdə peşəkar zabit kimi ordu sıralarında xidmət edəcəyim günü səbirsizliklə gözləyirəm. Bunun üçün dərslərimi yaxşı oxuyuram. Biz əgər müasir silah və texnikanın dilini bil-



mək istəyiriksə, ilk növbədə biliklə silahlanmalıyıq".

"Babək rayonunun Kərimbəyli kənd tam orta məktəbində hələ V sinfində oxuyarkən kursant formasında kəndə gələn qonşularımıza həsəd aparırdım. Qohumlarım arasında da hərbçilər var. İndi özüm bir kursant kimi özümdən kiçik olan qonşu uşaqlarını həvəsləndirirəm", - deyir kursant Mirad Qasımov. "Liseydə bizim yaxşı təhsil almağımız üçün hər bir şərait yaradılıb. Dərslərimizi fənlər üzrə müvafiq laboratoriya və kabinələrdə keçirik. Dərs saatlarından sonra sərbəst məşğələlərdə də müəllimlərimiz bizimlə məşğul olur. Zabit



bilikli olmaqla yanaşı, fiziki cəhətdən də güclü olmalıdır. İdman dərslərimiz xüsusilə maraqlı keçirilir. Liseyin həyətində futbol meydançası və idman qurğuları var, tədris korpusundakı idman zalı lazımi idman avadanlıqları ilə təmin olunub. Bura gələndə idmandan zəif idim, amma indi bütün normativləri yerinə yetirirəm".

Kursant Nağı Əliyev Şərur rayonunun Ələkli kəndindəndir. Vətənpərvərlik mövzusunda filmləri izləməyi xoşlayır. Deyir ki, Mübariz İbrahimov nəinki mənim üçün, hər bir gənc üçün örnəkdir. Qəhrəmanımızın keçdiyi şərəfli döyüş yolundan bəhs edən film və digər materialları izlədikcə məndə hərbçi olmaq arzusu yaranırdı. Bu arzu ilə də sənədlərimi Hərbi liseyə verdim. Bu gün artıq məqsədimin astanasındayam. Məqsədimə çatmaq üçün yaxşı oxumalı, mənəvi və fiziki cəhətdən özümü hazırlamalıyam.

Kursant Əli Əlioğluya görə isə hərb peşəsi çətin, lakin şərəfli və qürurvericidir: "Gələcəkdə dövlətimə, Vətənimə layiqli vətəndaş olmaq üçün bu yolu seçmişəm. Bizim orduya bacarıqlı və savadlı zabitlər gərəkdir. Mən özümdə bu gücü hiss edirəm. Atam hərbçidir. Geydiyi forma uşaqlıqdan diqqətimi çəkib. Atamın da arzusu məni zabit kimi görmək idi. İndi həm o, həm də mən arzumuza çatmışıq. Gələcəkdə Ali Hərbi məktəbi də bitirəndən sonra peşəkar bir zabit kimi ordu sıralarında öz xidməti vəzifəmi şərəf və ləyaqətlə yerinə yetirəcəyəm".

Kursant Qüdrət Məhərrəmli Gəncə şəhər 13 nömrəli tam orta məktəbin şagirdi olub: "Amalım Vətənə xidmətdir. Elə bu məqsədimə çatmaq üçün yolumu Heydər Əliyev adına Hərbi Liseydən saldım. Naxçıvanda xidmət edən yaxın bir qohumum mənə buranı məsləhət bildi. Özüm də bu liseyi seçdiyimə peşman deyiləm. Yaşayışımız, təhsilimiz üçün yaxşı şərait yaradılıb. Müəllim və zabitlərin xoş rəftarı liseyi mənim üçün doğma ocağa çevirib. Dərslərimi daha yaxşı



oxumağa həvəslənmişəm. Burada günümüz nizam qaydalarına uyğun olaraq çox səmərəli keçir. Hər şey yüksək təhsil almağımıza, fiziki və mənəvi-psixoloji cəhətdən hazırlığımıza hesablanıb".

Müxtəlif bölgələrdən olan gəncləri Hərbi liseydə bir amal birləşdirir: Peşəkar bir zabit kimi ordu sıralarında təmsil olunmaq, Vətənimizin keşiyində sədaqətlə dayanmaq. Bu şərəfli yolda məqsədlərinə doğru addımlayan kursantlara uğurlar arzulayırıq.

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xəbərlər: hadisələr, faktlar

## İstanbul sammiti: dörd ölkə lideri Suriyada davamlı atəşkəsin önəmini vurğulayıb



Oktyabrın 27-də İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Almaniya kansleri Angela Merkel, Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makronun iştirakı ilə Suriya mövzusunda dördtərəfli zirvə görüşü keçirilib.

Görüşdən sonra yayılan bəyannamədə Suriyada davamlı atəşkəsin önəmi vurğulanıb və tərəflər bunun üçün birgə səy göstərməkdə qərarlı olduqlarını ifadə ediblər.

## ABŞ və Cənubi Koreya Müdafiə nazirlərinin görüşü olacaq



Bu həftə Vaşinqtonda ABŞ və Cənubi Koreya Müdafiə nazirlərinin illik görüşündə müttəfiqlərin hərbi əməkdaşlığına dair məsələlər, habelə birgə uçuş təlimləri, döyüş vaxtı əməliyyat idarəetməsinin ötürülməsi müzakirə olunacaq.

50-ci dəfə keçiriləcək görüş müttəfiqlərin Koreya yarımadasında nüvə silahının ləğvinə və davamlı sülhün təminatına dair əməkdaşlıq səyləri fonunda keçiriləcək.

Güman olunur ki, görüşdə Şimali Koreya ilə aparılan danışıqlara mane olmamaq üçün cari il nəzərdə tutulan geniş "Vigilant Ace" uçuş təliminin təxirə salınmasına dair qərar qəbul ediləcək. Ötən ilki təlimdə hər iki tərəfdən birlikdə 270 hərbi təyyarə və 12 mindən çox hərbi qulluqçu iştirak etmişdi.

## Əfqanıstanda partlayış: azı 5 nəfər həlak olub, 12 nəfər yaralanıb



Əfqanıstanın mərkəzi hissəsində törədilən partlayış nəticəsində azı 5 nəfər həlak olub, 12 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.

1TV telekanalının yaydığı məlumata görə, şənbə günü bomba yüklü avtomobil Vardak əyalətində partladılıb. Hücumun hədəfinin polis idarəsi olduğu bildirilir. Partlayışın məsuliyyətini "Taliban" hərəkatı üzərinə götürüb.

Əfqanıstanda hökumət qüvvələri və kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar davam edir. Həmçinin ölkə ərazisində İŞİD qruplaşmasının da fəallığı artır. Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələri bütün ölkə ərazisində birgə antiterror əməliyyatları keçirirlər.

## Moskvada İŞİD terrorçu qruplaşmasının üzvləri saxlanılıb



Rusiya Federal Təhlükəsizlik Xidməti İŞİD terror təşkilatının Moskva vilayətindəki özəyinin 6 üzvünü zərərsizləşdirib.

Rusiya Federal Təhlükəsizlik Xidmətinin İctimaiyyətlə Əlaqələr Mərkəzinin məlumatına görə, onlar Moskvada terror aktları törətməyi planlaşdırırmış. Onlardan avtomat silahlar, bomba düzəldilməsi və terror aktının həyata keçirilməsi üçün təlimatlar, pul aşkar edilərək götürülüb.

Saxlanılan şəxslərin Orta Asiya respublikalarının vətəndaşları olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 860
Nüsxə 3525